İş № 2-1(103)-1528/2019

# QƏRARDAD

Bakı Apellyasiya Məhkəməsinin
İnzibati-İqtisadi Kollegiyası

18 iyun 2019-cu il Bakı şəhəri

Hakimlər Abiyeva Kəmalə Nəbi qızı (sədrlik edən və məruzəçi), Tağızadə Mirzə Nəsib oğlu və Mayılov Ülvi Arif oğlundan ibarət tərkibdə,
Şərifova Aysel Şərafəddin qızının katibliyi,
iddiaçının nümayəndəsi Abbasov Oktay Abbas oğlu, cavabdehin nümayəndəsi Hümbətov Camal Əli oğlunun iştirakları ilə,
iddiaçı "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxsinin cavabdeh "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsinə qarşı "qərarların ləğv edilməsi" tələbinə dair inzibati iş üzrə 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 10 may 2019-cu il tarixli, 2-1(81)-2204/2019 saylı qərardadından cavabdeh tərəfindən verilmiş şikayət əsasında açıq məhkəmə iclasında, şifahi məhkəmə baxışı qaydasında baxaraq

## MÜƏYYƏN ETDİ:

İddiaçı "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxs cavabdeh "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsə qarşı iddia ərizəsi və iddia tələbinin həcminin azaldılmasına dair ərizə ilə 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə müraciət edərək, cavabdehin qəbul etdiyi 19 fevral 2019 tarixli № İNN 0057-18 UQQ AL saylı qərarının ləğv edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Daha sonra iddiaçı "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxs müvəqqəti xarakterli müdafiə tədbiri barədə ərizə ilə məhkəməyə müraciət edərək, işə mahiyyəti üzrə baxılıb qurtaranadək müvəqqəti xarakterli müdafiə tədbiri kimi, "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsin qəbul etdiyi 19.02.2019 tarixli № İNN 0057-18 UQQ AL nömrəli qərarının icrası dayandırılmasını xahiş etmişdir.

Ərizə onunla əsaslandırılmışdır ki, iddiaçı "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxs cavabdeh "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsə qarşı cavabdehin qəbul etdiyi 19 fevral 2019 tarixli № İNN 0057-18 UQQ AL saylı qərarının ləğv edilməsi tələbinə dair inzibati iş üzrə yekun qərar qanuni qüvvəyə minənədək, mübahisələndirilən inzibati aktın icrası

dayandırılmalıdır. İddiaçı ərizəsində Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 40 və 41-ci maddələrinə istinad etmişdir.

1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 10 may 2019-cu il tarixli, 2-1(81)-2204/2019 saylı qərardadı ilə ərizə təmin edilərək, işə mahiyyəti üzrə baxılıb qurtaranadək müvəqqəti xarakterli müdafiə tədbiri kimi, "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsin qəbul etdiyi 19.02.2019 tarixli № 0057-18 UQQ AL nömrəli qərarının icrası dayandırılmışdır.

Həmin qərardaddan cavabdeh tərəfindən apellyasiya şikayəti verilərək, qərardadın ləğv edilməsi xahiş edilmişdir.

Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsi öz qərardadını iddianın böyük ehtimalla uğurlu olacağı qənaətinə gəldiyinə görə müvəqqəti xarakterli müdafiə tədbiri barədə qərardadının qəbul edilməsi zərurəti ilə əsaslandırmağa çalışmışdır. Halbuki, iddiaçı "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxs ilə cavabdeh "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsi arasında müqavilə münasibətləri mövcud olduğu üçün işin iqtisadi mübahisələrə aid olduğu hazırlıq icraatı ilə bağlı məhkəmə iclasında məhkəmənin nəzərinə çatdırılmışdır. Bundan başqa həmin iclasda hazırkı mübahisə ilə bağlı işin iqtisadi mübahisələrə aid olmadığı təqdirdə belə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 22 may tarixli 128 nömrəli qərarı ilə təsdiq "İnzibati orqanlar arasında aidiyyat və səlahiyyətlə bağlı mübahisələrin həlli Qaydası"na uyğun olaraq inzibati orqanlar arasında aidiyyat və səlahiyyətlə bağlı mübahisələrin müəyyən olunmuş qaydada subordinasiya baxımından yuxarı inzibati orqan və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yaradılmış komissiya tərəfindən həll edilməli olduğu da məhkəməyə bildirilmişdir. Məhkəmə isə hazırkı işin aidiyyatı ilə bağlı mübahisənin olduğuna, iddianın uğurluluq ehtimalının aydın olmadığına, ziddiyyətli məqamları hərtərəfli qiymətləndirmədən və işin bu hallarına əhəmiyyət vermədən əsassız, qanuna zidd və qeyri-obyektiv qərardad qəbul etmişdir. Halbuki, belə olan halda məhkəmə işin aidiyyatı ilə bağlı və yaxud iddianın mümkün sayılmaması barədə qərardad qəbul etməli idi. Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 41.2-ci maddəsinə əsasən işin faktiki və hüquqi hallarının ilkin araşdırılması nəticəsində iddianın böyük ehtimalla uğurlu olacağı qənaətinə gəldiyi hallarda, məhkəmə iddiaçının vəsatəti əsasında inzibati aktın (həmin Məcəllənin 131.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş inzibati akt istisna olmaqla) icrasının dayandırılması barədə qərardad qəbul edə bilər. İddianın uğurluluq ehtimalının aydın olmadığı hallarda, məhkəmə ziddiyyətli maraqların hərtərəfli qiymətləndirilməsindən sonra qərardad qəbul etməlidir. Məhkəmə həmçinin inzibati aktın icrasının müəyyən şərtlərlə dayandırılması barədə də qərardad qəbul edə bilər. Cavabdeh apellyasiya şikayətində İnzibati Prosessual Məcəllənin 8.2, 8.4, 8.5, 85.1, 9.1, 9.1.12, 87.6, 87.7-ci maddələrinə istinad etmişdir.

Məhkəmə kollegiyasının iclasında iştirak edən cavabdehin nümayəndəsi Camal Hümbətov apellyasiya şikayətinin dəlillərini müdafiə edib, şikayətin və iddia ərizəsinin məzmununa uyğun izahat vermiş, apellyasiya şikayətinin təmin olunmasını xahiş etmişdir.

Məhkəmə kollegiyasının iclasında iştirak edən iddiaçının nümayəndəsi Oktay Abbasov apellyasiya şikayətinin dəlillərinə etiraz edərək, müvəqqəti xarakterli müdafiə tədbirinin görülməsinə dair ərizənin məzmununa uyğun izahat

vermiş, apellyasiya şikayətinin təmin olunmamasını, birinci instansiya məhkəməsinin qərardadının dəyişdirilmədən saxlanmasını xahiş etmişdir.

Məhkəmə kollegiyası apellyasiya şikayətinin dəlillərini işin materialları ilə birgə araşdırıb hesab edir ki, apellyasiya şikayət təmin edilməməlidir.

İşin materialları ilə müəyyən edilir ki, cavabdehin 19 fevral 2019 tarixli № İNN 0057-18 UQQ AL saylı qərarı ilə Azərbaycan Metrologiya İnstitutunun laboratoriyasının 05 oktyabr 2017-ci il tarxli, AZ09.0252.01.17 saylı akkreditasiya attestatı ləğv edilmişdir.

Hazırda iddiaçı "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxsi həmin qərarı mübahisələndirərək ləğv edilməsinə dair iddia qaldırmaqla yanaşı, iddia tələbinə mahiyyəti üzrə baxılıb qurtaranadək, qərarın icrasının dayandırılmasını xahiş edir.

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin 40.1-ci maddəsinə əsasən maraqlı şəxs inzibati aktın icrasının dayandırılması barədə və ya iddianın təmin edilməsinə (iddiaçının hüquqlarının qorunmasına) yönəlmiş digər təminat tədbirlərinin görülməsi barədə məhkəməyə ərizə ilə müraciət edə bilər.

Həmin Məcəllənin 40.3-cü maddəsinə əsasən məhkəmə müvəqqəti xarakterli müdafiə tədbiri qismində cavabdehin üzərinə müəyyən hərəkətləri etmək və ya müəyyən hərəkətləri etməkdən çəkinmək, yaxud müəyyən hərəkətlərə dözmək barədə vəzifə qoya bilər. Qanuni əsaslar olduğu hallarda məhkəmə üçüncü şəxslərin də üzərinə belə vəzifələr qoya bilər.

Həmin Məcəllənin 41.2-ci maddəsinə əsasən işin faktiki və hüquqi hallarının ilkin araşdırılması nəticəsində iddianın böyük ehtimalla uğurlu olacağı qənaətinə gəldiyi hallarda məhkəmə, iddiaçının vəsatəti əsasında inzibati aktın icrasının dayandırılması barədə qərardad qəbul edə bilər. İddianın uğurluluq ehtimalının aydın olmadığı hallarda, məhkəmə ziddiyyətli maraqların hərtərəfli qiymətləndirilməsindən sonra qərardad qəbul etməlidir.

Həmin Məcəllənin 43.1-ci maddəsinə görə isə mövcud vəziyyətin dəyişəcəyi təqdirdə ərizəçinin (iddiaçının) hüquqlarının qorunmasının (təmin və ya bərpa edilməsinin) mümkün olmayacağı və ya xeyli dərəcədə çətinləşəcəyi səbəbindən ilkin təcili tənzimləmənin zəruri olması (43.1.1); İlkin məhkəmə araşdırması zamanı ərizəçinin maddi tələbinin mövcud olması ehtimalının müəyyən edilməsi (43.1.2) məhkəmə tərəfindən müvəqqəti xarakterli müdafiə barədə qərardadın qəbul edilməsi üçün əsas sayılır.

Məhkəmə kollegiyası aşağıda göstərilənlərə əsasən iddiaçının ərizəsinin təmin olunmasına dair birinci instansiya məhkəməsinin gəldiyi nəticə ilə razılaşır.

Belə ki, prossessual qanunvericiliyin tələbinə görə müvəqqəti xarakterli müdafiə tədbirinin zəruriliyinə dair dəlillərə qiymət verilərkən bu dəlillərin ağlabatan olması və əsaslılığı, bu tədbirlər görülmədikdə işdə iştirak edən şəxsin qanuni mənafeyinin əhəmiyyətli dərəcədə pozulması ehtimalı, işdə iştirak edən bütün şəxslərin qanuni mənafelərinin tarazlığının təmin edilməli olması və iddianı təmin etmə tədbirləri tətbiq edilərkən ümumi mənafelərin və ayrı-ayrı şəxslərin mənafelərinin pozulmasının qarşısının alınmalı olması nəzərə alınmalıdır.

Cavabdeh şikayətinin dəlili ondan ibarətdir ki, məhkəmə hazırkı işin aidiyyatı ilə bağlı mübahisənin olduğuna, iddianın uğurluluq ehtimalının aydın olmadığına, ziddiyyətli məqamları hərtərəfli qiymətləndirmədən və işin bu hallarına əhəmiyyət vermədən əsassız, qanuna zidd və qeyri-obyektiv qərardad qəbul etmişdir.

Məhkəmə kollegiyası cavabdehin apellyasiya şikayətinin dəlillərinə münasibətdə qeyd edir ki, iddiaçının işə mahiyyəti üzrə baxılıb qurtaranadək, cavabdehin mübahisəli qərarının icrasına yönələn hərəkətlərindən müdafiə olunmaq hüququ vardır və onun müvəqqəti xarakterli müdafiə tədbirinin tətbiq edilməsinə dair ərizəsinin təmin edilməsi Azərbaycan Respublikası İPM-nin 40,41 və 43-cü maddələrinin tələblərinə uyğundur.

Göstərilənlərə əsasən məhkəmə kollegiyası belə qənaətə gəlir ki, birinci instansiya məhkəməsi iddiaçının ərizəsinin təmin edilməsi barədə düzgün nəticəyə gəldiyindən, iş üzrə qəbul edilmiş qərardad dəyişdirilmədən saxlanmalı və apellyasiya şikayəti təmin edilməməlidir.

Azərbaycan Respublikası İPM-in 87.6-cı maddəsinə əsasən, apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qərarını dəyişdirmədən qüvvədə saxlaya bilər, dəyişdirə bilər və ya ləğv edərək (tam və ya qismən) yeni qərar qəbul edə bilər.

Şərh olunanlara əsasən və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin 40, 41, 43, 80, 87, 90 və 94-cü maddələrini rəhbər tutaraq, Kollegiya

q ə r a r a a l d ı:

Cavabdeh "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsi tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilməsin.

1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 10 may 2019-cu il tarixli, 2-1(81)-2204/2019 saylı qərardadı dəyişdirilmədən saxlanılsın.

Qərardaddan onun rəsmi qaydada verildiyi gündən 10 (on) gün müddətində Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyası vasitəsilə Azərbaycan Respublikasının Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasına kassasiya şikayəti verilə bilər.

Sədrlik edən hakim : imza
Hakimlər : imzalar

Əsli ilə düzdür

Sədrlik edən hakim Kəmalə Abiyeva